Ədəbiyyat QƏZETİ

5 dekabr / 2020

***"Sən o adamlardansan ki, hər yaşadığın il Azərbaycanı zənginləşdirən nələrinsə gəldiyi il olur!"***

*Əziz dostum Kamal, bu yaxınlarda olacaq 70 illik yubileyinlə səni və hamımızı təbrik edirəm. Sən gəncliyindən çoxlarının arzuladığı, ancaq gücü çatmadığı bir ağır vzifənin öhdəsindən gəlmisən. İndiyədək qibtə ediləsi şərəfli və maraqlı bir həyat yaşaya bilirsən. Xalq yazıçısı və akademik adları yazar və alim kimi sənin uğurlarının, yetənəklərinin sanbalını göstərir. Sən lap İntibah dönəminin titanları kimi istedadından universal şəxsiyyət yarada bilmisən. Sənətdə bir çox parlaq romanların və hekayələrinlə, şeir və pyeslərinlə bizi heyran etmisən. Rəhmətlik dostumuz Vaqif İbrahimoğlu kimi yüksək intellektuallığı və bədii zövqü olan bir adam sənin yaradıcılığından dərin söhbətlər edirdisə, bunun özü sənin istedadınla bağlı çox şeydən xəbər verirdi. Rəhman Bədəlov, Aydın Talıbzadə, Zeynal Məmmədli kimi mənim yaxından tanıdığım ziyalılar sənin bədii yaradıcılığından gözəl düşüncələri üçün ilham alırlarsa, bu da sənin haqqında çox şey deyir. Gətirdiyim siyahını Anarın, Elçinin, Ramiz Rövşənin və onlarca başqa parlaq yazarlarımızın, yabançı alimlərin adları ilə istənilən qədər uzada bilərəm.*

*Kamal, sənin bədii əsərlərin əl-kimya laboratoriyası kimi odun, suyun, havanın stixiyasında düşüncə və duyğuların ən gözəl qarışığını yaratmışdır. Sənin Dədə Qorqud yozumların bu eposu Kabbalanın ana kitabı Zoxar kimi dərin qatlarda açmışdır. Sənin intellektual esselərin mədəniyyətimizə və mənəviyyatımıza saysız qığılcımlar səpələməkdədir. Sənin elmi araşdırmaların dilçilikdən tutmuş, ədəbiyyat nəzəriyyəsi, fəlsəfi-kulturoloji gəzintilərəcən min yerə, min yola səyahət etdiyi üçün heyranedici universallıqdan xəbər verir. Bütün bu sözlərimin mədhiyyə tonu məddah tondan qaçan məni üzmür, çünki bilirəm, çoxları və bəlkə hamı belə sözlər üçün sənin elmi-bədii, ictimai yönümlərdə etdiklərinin əsas verdiyini bilir. "İctimai" dedim, bunları da söyləyim. Sən hansı univesitetdə, hansı qurumda işləmisənsə, oraya yenilik gətirmisən. Məni mat qoyan bir cəhətini də deməyə bilmərəm. Sən iki daşın arasında fürsət tapıb işarası gözəl elmi-bədii əsələr yazan nadir şəxslərdənsən. Lap yada salırsan Monmartr kafesində səs-küy və siqaret tüstüsü altında gözəl əsərlər yazan bohem yazarları.*

*Vətəndən, millətdən sevgi ritorikasında danışmağı sevmirsən. Ancaq məhz sən biz dostlarını birinci Qarabağ savaşında mərmilər düşən Ağdama, Ağdərəyə aparmışdın ki, döyüşçülərə mənəvi dayaq olaq.*

*Səninlə bağlı deyiləsi yaxşı sözlərin bu dediklərim heç yarısı da deyil. Ancaq düşünürəm ki, elə onlar da anladır nədən səni bu qədər sevən gənc və ahıl dostlar var, nədən Türkiyədə, Rusiyada, Avropada sənin yaradıcılığına bu qədər adam reaksiya verir.*

*Min yaşa, əziz dost! Sən o adamlardansan ki, hər yaşadığın il Azərbaycanı zənginləşdirən nələrinsə gəldiyi il olur!*

***Niyazi MEHDİ***